AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

Hacıyev Fazil Şöhlət oğlu,
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Dövlət İqtisad Universiteti,
E-mail: fazilhaciyev@yahoo.com
© Hacıyev F.Ş., 2021

UOT - 330.322:338.246(479.29)

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ İNVESTİSİYA QOYULUŞLARININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

X Ü L A S Ə

Tədqiqatın məqsədi - investisiya qoyuluşları şəraitində milli iqtisadiyyatın prioritet sahəsi olan işğaldan azad olunmuş ərazilərin davamlı inkişaf istiqamətini müəyyən etmək.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, maliyyə təhlili.

Tədqiqatın nəticələri - iqtisadi islahatlar zəminində işğaldan azad olunmuş ərazilərə yönələn istər yerli, istər xarici investisiya qoyuluşlarının səmərəliliyinin təhlili.

Tədqiqatın praktiki əhəmiyyəti - Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud potensialın qiymətləndirilməsində elmi mənbə kimi istifadə imkanlığı.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - müxtəlif mənbələrdən işğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsi.

Açar sözlər: bazar iqtisadiyyatı, işğaldan azad olunmuş ərazilər, investisiyalar, investisiyaların səmərəliliyinin qiymətləndirilməsi.

G İ R İ Ş

Azərbaycanın dayanıqlı sosial iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası dövlətin diqqət mərkəzindədir. Belə ki, Prezident İlham Əliyev ötən ilin yekunlarına dair müşavirədə torpaqlarımızın işğaldan azad edilməsinin son otuz ilin ən mühüm tarixi hadisəsi olduğunu qeyd etmişdir. Müşavirədə işğaldan azad edilən ərazilərdə quruculuq işlərinin aparılması bir daha vurğulanmışdır. Eyni zamanda, əzəli yaşayış sahələrimizdə tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq üçün bu ərazilərə mərhələli şəkildə sektorlar üzrə investisiya qoyuluşlarının və digər sərmayələrin cəlb edilməsi qarşıya qoyulan mühüm vəzifə kimi qiymətləndirilmişdir.

İqtisadi İnkişaf Nazirliyi bu vəzifələrlə əlaqədar, işğaldan azad olan ərazilərin bərpası və inkişaf istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də, qeyri-neft sektoruna yeni, yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradılacağını qeyd etmişdir.

Bu işlərin görülməsi zamanı dövlət vəsaitinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə yol-nəqliyyat, kommunal infrastrukturu, ənənəvi və alternativ enerji istehsalı, miqrasiya və meliorasiya sisteminin çəkilməsi və sair sahələr üzrə investisiya sahələri həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlarından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiq olunması məqsədəuyğun hesab edilməsinə diqqət yetirilmiş və davamlı inkişaf xarakterizə edilmişdir.

Bu işləri müvəffəqiyyətlə yerinə yetirmək üçün Prezident İlham Əliyevin 4 yanvar

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyatın təmin edilməsi üçün bir vasitədir. Belə ki, 2021-ci ilin dövlət büdcəsindən ayrılan 2.2 milyard manat vəsait ilə yanaşı dövriyyəyə cəlb olunmaqla milli sərvət-torpaq, meşə, su, faydalı qazıntılar, əmlak və mədəni sərvətlər kapitalının həcmini əsas fondları artırır. Bütün bunlardan səmərəli istifadə işğaldan azad olunmuş ərazilərin davamlı inkişafını təmin edəcəkdir.

İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının təhlili

Vurğulamaq yerinə düşər ki, 2021-ci il Birləşmiş Millətlər Təşkilatı tərəfindən da-vamlı inkişaf üçün "Beynəlxalq Yaradıcı İqtisadiyyat" ili elan olunmuşdur.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının nümunəvi üzv dövləti olaraq bu təşəb-büsə qoşulmaqla işğaldan azad olunmuş ərazilərdə ardıcıl davamlı iqtisadi inkişafın təmin edilməsi istiqamətində investisiyaların cəlb edilməsi dahada gücləndiriləcəkdir. Bunlar isə işğaldan azad olunmuş ərazilərdə dayanıqlı inkişaf məqsədlərinə uğurla nail olunmasında mühüm rol oynayacaqdır.

Qeyd etmək lazımdır ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyat Xidmətliyinin verdiyi məlumata görə, 30 il ərzində düşmən ərazilərimizdə nəqliyyat infrastrukturunu və avtomobil nəqliyyatını məhv etmişdir. Belə ki, 22 avtonəqliyyat müəssisəsi, 10 avtovağzal və avtostansiya kompleksi, avtonəqliyyat müəssisələrinə məxsus Ağdamda 160, Xaçmazda 70, Füzulidə 60, Cəbrayılda 15, Zəngilanda 40, Şuşada 90, Xocalıda 70, Qubadlıda 50, Xankəndində 350, Kəlbəcərdə 70, Ağdərədə 30, Xocavənddə 10, ümumilikdə, 1015 ədəd nəqliyyat vasitələri talan edilib, yararsız hala salınmışdır. Məhv edilən nəqliyyat infrastrukturunun və maddi texniki bazasının yenidən qurulması üçün ayrılımış investisiyalardan səmərəli istifadə vacib məsələlərdən biridir. Hazırda Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılmışdır. Füzuli-Şuşa avtomobil yolları, Bərdə-Ağdam dəmiryolunun inşasına artıq başlanmışdır.(4)

İşğaldan azad edilmiş ərazilərin sənaye potensialını nəzərə alsaq, Füzulidə artıq beynəlxalq hava limanının inşasına başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu il yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa "Zəfər yolu" təməli qoyulmuşdur. "Zəfər yolu" işğaldan azad edilmiş Füzuli, Xocalı, Xocavənd və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilib. Avtomobil yolu Füzuli və Şuşa şəhəri də daxil olmaqla sözü-gedən rayonların 20-dən artıq yaşayış məntəqələrini əhatə edəcək. Tikinti işləri inşa, norma və qaydalarının tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Eyni zamanda, Horadizdən Zəngilana, oradan Qubadlıya və sonra Laçına qədər yolun çəkiliş işlərinə də hazırlıq işləri görülür.

Prezident İlham Əliyev erməni vandalizmindən danışarkən qeyd etmişdir ki, işğaldan azad edilmiş rayonlarda 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə-yaşayış evləri və inzibati binalarla yanaşı, 700 tarixi-mədəni abidə, 927 kitabxana, 800 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, ümumilikdə, 100 000 artefaktın saxlandığı 22 muzey, 4 rəsm qalereyası, 4 kinoteatr, 2 konsert zalı məhv edilmişdir. Bunların bərpası üçün tələb olunacaq milyardlarla investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir.

İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə kəndlərin "Ağıllı kənd"

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

konsepsiyası əsasında qurulacağını qeyd edib: "Biz indi "Ağıllı kənd" konsepsiyasını hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır. "Ağıllı kənd" birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir". "Ağıllı kənd" konsepsiyasının həyata keçirilməsi Zəngilan rayonundan başlayacaqdır və bu konsepsiyanın yerinə yetirilməsinə cəlb ediləcək yerli və xarici investisiyalardan səmərəli istifadə bir daha vurğulanmışdır.

Prezident İlham Əliyev mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, ölkənin işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsindən nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391 min ABŞ dollarının manat ekvivalenti məb-ləğində vəsait ayrılıb. İşğaldan azad olunan rayonlarda "yaşıl enerji" zonasının yaradılması üçün çox böyük potensial olduğunu qeyd edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu regionda Laçın-Kəlbəcər bölgələrində külək enerjisindən Zəngilan-Cəbrayıl ərazilərində isə günəş enerjisindən istifadə imkanlarının geniş olduğunu diqqətə çatdıraraq deyib: "Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "Yaşıl enerji" zonasına çevirəcəyik. Bu proqram çərçivəsində Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir". "Yaşıl enerji" zonası layihəsinin Qarabağ və ətraf rayonlarda reallaşdırılmasının potensial imkanlara bərabər, digər amillər də şərtləndirir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldiyindən, Qarabağın bərpa-yenidənqurma məsələlərində də bu istiqamət əsas götürülür. Başqa sözlə, "yaşıl enerji" zonası kimi bərpa olunması nəzərdə tutulan Qarabağın dünyanın ən müasir yaşayış məskənlərindən biri olaraq yenidən qurulmasına əhəmiyyət verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də qlobal iqlim dəyişikliklərinin miqyasının azaldılması, təmiz ətraf mühitin təmin olunması və Azərbaycanın "yaşıl enerji" ölkəsinə çevrilməsi kimi məsələlər yaxın on illiyin əsas strateji istiqaməti kimi göstərilib.

Qeyd etmək lazımdır ki, hazırda işğaldan azad edilən ərazilərdə "yaşıl enerji" zona-sının yaradılması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Hazırda Azərbaycanın elektroenergetika, o cümlədən bərpa olunan enerji mənbələri sahəsinə xarici və yerli investorların marağı getdikcə artır.

"Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2019-cu il 29 may tarixli sərəncamı ilə maliyyələşdirilən vəzifələrin mühüm istiqamətlərindən biri elektroenergetika sahəsinə özəl investisiyaların cəlb edilməsi üçün zəruri tədbirlərin görülməsidir. Energetika Nazirliyi tərəfindən ilkin layihəsi hazırlanan və 2050-ci ilədək dövri əhatə edən energetika sektorunun uzunmüddətli inkişaf strategiyası məhz özəl investisiyalara istiqamətlənən inkişaf modelinə əsaslanır.

Hazırda günəş və külək enerjisi potensialının səmərəli istifadəsini təmin etmək üçün 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması mühüm vəzifə olaraq müəyyənləşdirilib. Həmçinin 2030-cu ilədək təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulub. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşması planlaşdırılır. Bununla yanası, bu sahədə pilot layihələrin də həyata keçirilməsinə başlanıb. Ötən ilin dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığı-

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

nın "ACWA POWER" şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisi ilə bağlı müqavilə imzalanıb. Layihənin reallaşdırılmasının ümumilikdə 300 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu, il ərzində isə 1 milyard kilovat saata yaxın enerjinin istehsalı nəzərdə tutulub.

İqtisadiyyat və Energetika Nazirliyinin birgə məlumatında bildirilib ki, bu layihənin icrası nəticəsində il ərzində 200 milyon kubmetr qaza qənaət ediləcək, habelə ətraf mühitə atılan tullantılar həcmi ildə 400 min tona qədər azaldılacaq.

Bütün bunlar "Elektroenergetika haqqında" qanun layihəsinin qəbul edilməsi bu sa-hədə rəqabət mühitinin formalaşdırılmasını təmin edəcək. İnvesitisiyaları həmin mövcud stansiyaların özəlləşdirilməsi, həm də yeni özəl elektrik stansiyaların tikintisi yolu ilə cəlb etmək nəzərdə tutulur.

Hazırda Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox günəş enerjsiinin böyük potensialı mövcuddur. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonunda dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovatlıq şəbəkənin yaradılacağı nəzərdə tutulub. Eyni zamanda "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının inşası da nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş torpaqlarda aqrar sahənin inkişafı ilə bağlı mühüm tədbirlər görülür. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi "Azərkosmos" ASC azad olunmuş ərazilərdə faktiki əkinaltı torpaqların peyk təsvirləri əsasında xəritələşdirməsini aparıb. Həmin torpaqlarda əkinlərə, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq göstərilməsi məqsədilə işlərə başlanılıb. Əlbəttə, ən ümidə vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərdə torpaqdan səmərəli istifadəyə nail olmaqdır. Prezident İlham Əliyevin tapşırığına əsasən, azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafının sistemli xarakter alması üçün hökümət proritetlər seçir. Öncə ərzaq təhlükəsizliyi məqsədilə hansı məhsulların əkilməli olduğu dəqiqləşdirilir. Belə ki, azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sayəsində çox böyük potensialı var. Kəlbəcər, Laçın rayonları geniş örüş, otlaq sahələrinə malikdir. Azad edilmiş torpaqlarda sovet dövründə taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq, bağçılıq, heyvandarlıq çox geniş vüsət almışdır. Bunlar azad edilmiş torpaqlarda ixrac potensialını artırmasına və şaxələndirilməsinə imkan verəcək. Kənd təsərrüfatının inkişafı ilə bağlı cənab İlham Əliyevin bu günlərdə təsdiqlədiyi "Azərbaycan-2030 sosial-iqtisadi inkişafa dair milli prioritetlər"də də xüsusi yer almışdır. Bu istiqamətdə işğaldan azad edilmiş ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanıb. Göründüyü kimi, Qarabağın bölgələrində kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq başlanılan işlər in-didən uğur vəd edir. Belə ki, Azərbaycanın işğaldan azad olunan torpaqlarda bu potensialdan üzümçülük, tütünçülük, pambıçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün səmərəli istifadə etmək gücündədir. Bu baxımdan fermerlərin kənd təsərrüfatı texnikasının tələbatını ödəmək məqsədilə onlara minlərlə maşın və mexanizm verilməsi, həmçinin minlərlə baş damazlıq heyvanların satışı maliyyələşdirilib. Ötən il 3400-dən çox fermerə mikrokreditlər verilib, bu ildən isə həmin kreditlər artıq olacaqdır. Eyni zamanda bölgədə emal və ərzaq sənayesinin inkişaf potensialı yetərincədir. Bunlarla yanaşı olaraq arıçılığın inkişafı da xüsusi əhəmiyyət kəsb edir. Bu potensiallar sırasında ipəkçilik üzrə Cəbrayıl rayonun və Şuşa şəhəri, taxılçılıq üzrə Kəlbəcər, Cəbrayıl, Tərtər, Qubadlı, Füzuli və Xocavənd rayonlarını inkişaf etdirmək məqsədəuyğundur. Kənd təsərrüfatı məhsullarının emalı sahəsində Kəlbəcər, Tərtər və Füzuli, göndəri emalı üzrə

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

Ağdam, Cəbrayıl, Laçın və Füzuli rayonları geniş potensialı ilə diqqət çəkir. İşğalda olan ərazilərdə su ehtiyatı da zəngindir. Belə ki, su ehtiyatlarının 72.7%-i ölkə xaricində formalaşan Azərbaycanın işğal altında olan su resurslarına çıxışı əhəmiyyətlidir. Bu ehtiyatlardan həm içməli su, həm me-liorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə edilə bilər.

Bütün bunlarla bərabər, dağ-mədən sənayesi üzrə Kəlbəcər və Zəngilan rayonlarında qızıl, mis, gümüş, civə və xromit ehtiyatları, Cəbrayıl rayonunda yerləşən "Yəşəm" və "Xalsedon" yataqları zərgərlik sahəsini inkişaf etdirməyə imkan verir. Eyni zamanda Şuşa, Laçın və Kəlbəcərdə dağ turizmi, ekoturizmi, müalicəvi turizm, mədəni turizm üçün yararlı sayda digər rayon və şəhərlərimizin potensialından istifadə etmək Qarabağın iqtisadi dirçəlişinə böyük töhfə verəcəkdir. Belə ki, Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərin turizmi inkişaf strategiyasının və siyasətini hazırlayır. Bu qənaətə görə, işğaldan azad edilmiş ərazilərdə bir neçə turizm klasteri yaradılması vacibdir.

Bu, ilk növbədə Füzuli-Xocavənd – Şuşa-Laçın istiqamətidir. Digər klaster paralel Füzuli-Cəbrayıl-Zəngilandır. Zəngilan-Qubadlı üçüncü, Kəlbəcər Laçın dördüncü klaster-dir. Beşinci klasterə Bərdə-Ağdam daxildir.

Regionların ayrı-ayrılıqda potensialında Şuşanın imkanları yüksək qiymətlən-dirilir. Burada mədəni tədbirləri təşkili, festival-turizm məhsulları təqdim edilə bilər. Laçın-Kəlbəcər istiqamətində təbiət, qış turizmi və sağlamlıq turizmi, Qubadlı və Zəngilanda mədəniyyət və təbiət, Füzuli, Ağdam, Cəbrayılda mədəniyyət və işğalın nəticələrini göstərməklə bəzi tikililər saxlamaqla turistlər üçün nümayiş etdirmək lazımdır. Göründüyü kimi, turist axınının coğrafiyası genişlənir. Belə ki, Xudafərin körpüsü vasitəsilə İrandan, Naxçıvan üzərindən isə Türkiyədən turistlərin gəlməsi mümkün olacaq. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən turist axını gözlənilməkdədir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" in təsdiq edilməsi haqqında sərəncamda qeyd edilir ki, əldə edilən iqtisadi üstünlük, hər şeydən öncə, işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi poten-sialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş şərait yaradacaqdır.

Y E K U N

İşğaldan azad olunmuş ərazilərdə investisiyaların əhəmiyyətli miqdarda axını və inkişafı, ilk növbədə, əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən dövlət səviyyəli tədbirlərə sırf bağlıdır. İstər yerli, istərsə də xarici investisiyaların həyata keçirilməsi və belə imkanların daha da təkmilləşdirilməsi üçün aşağıdakılar vacib şərtlər hesab edilməlidir:

- əlverişli investisiya mühiti yaratmaqla, ölkəyə xarici investiyaların axınının sürətlənməsinə şərait yaratmaq;
- sərmayələrin hərəkətinin beynəlxalq təcrübəsində tətbiq edilən səmərəli formalardan geniş istifadə etməklə ölkədə sənayeləşmə potensialı yaratmaq;
- inkişafı tələb edilən işğaldan azad olunmuş ərazilər üçün potensial xarici investorların axtarılması və cəlb olunması üzrə mövcud təşkilatların funksiyalarının vahid dövlət strukturunda cəmləşdirilməsi və ya əlaqələndirilməsi;
- ölkənin beynəlxalq konvensiyalara, müqavilələrə qoşulması və bir çox dünya dövlətləri tərəfindən qəbul olunan qaydalara əməletmə öhdəliyinin götürülməsi istiqamətində, həmçinin xarici investisiya siyasətində ölkənin milli və beynəlxalq mənafelərinin, dövlət və cəmiyyətin məqsədlərinin qorunması və uzlaşdırılması;
- xarici investisiyaların tətbiqi və cəlb edilməsinin işğaldan azad olunmuş ərazilərdə,

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

onların milli iqtisadiyyatın bütün sahələrinə istiqamətləndirilməsi;

- birbaşa investisiyalarla yanası, ölkəmizin zəif cəlb olunan portfel investisiyalarının tətbiqi üçün əlverişli şərait yaratmaq,bunun üçün qiymətli kağızlar bazarını dünya standartlarına uyğun formalaşdırmaq, investisiyaların qorunması haqqında ikitərəfli sazişləri nəzərdən keçirmək;
- xarici investisiya əməliyyatlarında gələcəkdə alınan gəlirlərin ilk kapital qoyuluşlarından fərqli olma ehtimalı mövcud olduğuna görə kapitalın bir valyutadan digərinə keçirilməsi, onun real səviyyəsinin qiymətləndirilməsi və investisiyaların xüsusiyyətlərinin nəzərə alınması təmin olunmalıdır. Çünki beynəlxalq (birbaşa və portfel) investisiya əməliyyatlarında valyuta risklərinin idarə olunması məsələləri vacib amillərdən hesab olunmalıdır;
- Azərbaycanda bank sisteminin fəallığının dəstəklənməsindəki zəif iştirakı aradan götürülməlidir. Xarici kapitalın iştirak etdiyi investisiya layihələrinə xidmətdən yerli bankların payı qənaətbəxş səviyyəsinə çatdırılmalıdır;
- xarici investorların cəlb edilməsində mühüm və milli mənafe baxımından faydalı olan bir istiqaməti-idxalı əvəz edən məhsullar istehsalının təşkilinə xüsusi fikir verilməlidir;
- xarici investisiyaların təkcə işğaldan azad olunmuş ərazilərdə deyil, regionlarda yayılmasına iqtisadiyyatın digər sahələrinə axınına dövlət səviyyəsində kəsərli tədbirlərin görülməsi ön plana çəkilməlidir;
- müasir şəraitdə xarici investisiyaların cəlb olunması sahəsində konkret vəziyyəti öyrənmək, ölkədə investisiya mühitini təmin edən iqtisadi və qanunvericilik bazasını xarici investisiyaların cəlb olunması və birgə müəssisələrin yaradılması mexanizmini müasir tələblərə uyğun təkmilləşdirilməsini təmin etmək;
- milli iqtisadiyyatın əsas seqmentlərindən biri olan işaldan azad olunmuş ərazilərə yönəldilən istər yerli, istər xarici sərmayələrin səmərəli və məqsədli istifadəsi, onların cəlb edilməsinin stimullaşdırılması, ölkənin gələcək davamlı inkişafının, dünya iqtisadiyyatında və inteqrasiyasında əsaslı mövqe tutmasında tam təminatçısı olacaqdır.

Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə almaqla, istər yerli, istər xarici investisiyaların zəruri hüquqi mühitinin daha da zənginləşdirilməsi, təkmilləşdirilməsi, onun mütərəqqi dünya səviyyəsinə uyğunlaşdırılması Azərbaycanda xarici investisiya qoyuluşları imkanını daha da inkişaf etdirə bilər və ölkənin qloballaşdırma proseslərində fəal iştirakına kömək ola bilər.

Ədəbiyyat siyahısı:

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, s.37.
2. "Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlər" 2021, Bakı.
3. Əliyev R., Məmmədov M., Novruzov N. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. 2005, Bakı, s.355.
4. Abbasov İ.M. "Audit", 2007, Bakı, s.530.
5. Hacıyev F.Ş. "İdarəetmə təhlili" 2020, Bakı, s.320.
6. Hacıyev F.Ş. "Auditdə iqtisadi təhlil", 2018, Bakı, s.410.
7. Xalq qəzeti, 06 Fevral, 2021- ci il.
8. https://www.stat.gov.az/
9. http://www.audit.gov.az/

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

Гаджиев Фазиль Шохлат оглы,
доктор экономических наук, профессор,
Азербайджанский Государственный
Экономический Университет,
E-mail: fazilhaciyev@yahoo.com
© Гаджиев Ф.Ш., 2021

АНАЛИЗ И ОЦЕНКА ИНВЕСТИЦИЙ НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ

Р Е З Ю М Е

Цель исследования - определить направление устойчивого развития освобожденных территорий, которое является приоритетным направлением национальной экономики с точки зрения инвестиций.

Методология исследования - системный подход, финансовый анализ.

Результаты исследования - анализ эффективности как внутренних, так и иностранных инвестиций на освобожденных территориях на основе экономических реформ.

Практическая значимость исследования - возможность его использования в качестве научного источника для расширения имеющегося потенциала на освобожденных территориях Азербайджана.

Оригинальность и научная новизна исследования - совершенствование методологии оценки эффективности инвестиций на освобожденных территориях из различных источников.

Ключевые слова: рыночная экономика, освобожденные территории, инвестиции, оценка эффективности вложений.

AUDİT 2021, 3 (33), səh.23-30.
AUDIT 2021, 3 (33), pp. 23-30.

Fazil Shohlat Hajiyev,
D. Sc. (Econ.), Professor,
Azerbaijan State University of Economics (UNEC),
E-mail: fazilhaciyev@yahoo.com
© F.Sh. Hajiyev, 2021

ANALYSIS AND EVALUATION OF INVESTMENT IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

A B S T R A C T

The purpose of the research is to determine the direction of sustainable development of the liberated territories, which is a priority area of the national economy in terms of investment.

The methodology of the research - systematic approach, financial analysis.

The results of the research are an analysis of the effectiveness of both domestic and foreign investments in the liberated territories based on economic reforms.

The practical importance of the research - the possibility of using it as a scientific source to expand the existing potential in the liberated territories of Azerbaijan.

The originality and scientific novelty of the research - improvement of the methodology for assessing the effectiveness of investments in the liberated territories from various sources.

Keywords: market economy, liberated territories, investments, evaluation of investment efficiency.

Məqalə redaksiyaya daxil olmuşdur: 05.08.2021
Təkrar işləməyə göndərilmişdir: 10.08.2021
Çapa qəbul olunmuşdur: 16.08.2021

Дата поступления статьи в редакцию: 05.08.2021
Отправлено на повторную обработку: 10.08.2021
Принято к печати: 16.08.2021

The date of the admission of the article to the editorial office: 05.08.2021
Send for reprocessing: 10.08.2021
Accepted for publication: 16.08.2021